azpromo

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu

# CAR-la əməkdaşlıq imkanları müzakirə edilib

Image not readable or empty
/uploads/images/news/118d642d9ea2dd96e8cfa79a548ed97d_600x500-resize_crop-2404.jpg

Fevralın 28-də Bakı Biznes Mərkəzində Azərbaycanın İqtisadiyyat Nazirliyinin dəstəyi, AZPROMO-nun təşkilatçılığı ilə Cənubi Afrika Respublikasının Türkiyə və Azərbaycandakı səfiri Pule İsaak Malefanenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib, Azərbaycan və Cənubi Afrika arasında iqtisadiyyatın müxtəlif sahələrində əlaqələrin genişləndirilməsinə, potensial əməkdaşlıq imkanlarına dair müzakirələr aparılıb.
50-ə yaxın Azərbaycan sahibkarının iştirak etdiyi görüşdə AZPROMO-nun rəhbəri Rüfət Məmmədov ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması, özəl sektorun inkişafının stimullaşdırılması, ixracın genişləndirilməsi, "Made in Azerbaijan" brendinin və xarici investisiyaların təşviqi istiqamətində görülən tədbirlər barədə məlumat verib.
Cənubi Afrika Respublikasının Türkiyə və Azərbaycandakı səfiri Pule İsaak Malefane ölkələrimiz arasındakı əlaqələr, CAR-ın iqtisadiyyatı, əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüb.
Tədbir çərçivəsində Cənubi Afrikanın investisiya və biznes imkanlarına dair video-çarx nümayiş olunub, CAR-ın iqtisadi potensialı azərbaycanlı sahibkarların diqqətinə çatdırılıb.Sonra AZPROMO ilə Cənubi Afrika Respublikasının Türkiyədə və Azərbaycandakı Səfirliyi arasında qarşılıqlı əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb, iş adamlarının sualları cavablandırılıb.